

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Mülki müdafiənin təmin edilməsi haqqında

# Qərar № 193

***Bakı şəhəri, 25 sentyabr 1998-ci il***

«Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 aprel tarixli 700 nömrəli Fərmanının 2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Mülki müdafiə tədbirlərinin təşkili və həyata keçirilməsi Qaydası».

«Mülki müdafiə üzrə Azərbaycan Respublikası ərazisinin zonalara, şəhərlərinin qruplara və təsərrüfat obyektlərinin dərəcələrə bölünməsi Qaydaları»;

«Azərbaycan Respublikasında fövqəladə hadisələrdən müdafiə sahəsində əhalinin hazırlanması Qaydaları» təsdiq edilsin.

2. «Azərbaycan Respublikasında əhalinin mülki müdafiəyə hazırlanması haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 28 dekabr tarixli 703 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 sentyabr 1998-ci il, № 9, maddə 600) («VneshExpertService» LLC).***

***13 sentyabr 2006-cı il tarixli, 207 nömrəli; 9 iyun 2008-ci il tarixli, 132 nömrəli; 10 iyun 2008-ci il tarixli, 134 nömrəli; 29 mart 2010-cu il tarixli, 53 nömrəli; 25 iyun 2010-cu il tarixli, 122 nömrəli Qərarlara əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir.***

# Mülki müdafiə tədbirlərinin təşkili və həyata keçirilməsi Qaydası

1. Mülki müdafiə tədbirlərinin təşkili və həyata keçirilməsi qaydasını müəyyən edən sənədlər Azərbaycan Respublikasının mülki müdafiə planı və Azərbaycan Respublikasının illik mülki müdafiə tədbirləri planıdır.

2. Azərbaycan Respublikasının mülki müdafiə planı Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və digər nazirliklər cəlb olunmaqla Azərbaycan Respublikasının *Fövqəladə Hallar Nazirliyi* tərəfindən işlənib hazırlanır və təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur.

3. Azərbaycan Respublikasının mülki müdafiə planı fövqəladə hadisələr zamanı ölkədə mülki müdafiənin idarə edilməsi üçün əsas sənəddir. Planda fövqəladə hadisələr nəticəsində yarana biləcək vəziyyət və real imkanlar nəzərə alınmaqla əhalinin mühafizəsinin təşkili, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması üçün xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsinin təminatı, eləcə də belə şəraitdə idarəetmənin təşkili (idarəetmə məntəqələrindən və rabitə kanallarından istifadə olunması, xəbərdarlıq siqnallarının verilməsi qaydası və s.) barədə əsas göstərişlər öz əksini tapır.

4. Mülki müdafiə planları bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, mülkiyyət formasından asılı olmayaraq təsərrüfat obyektlərində tərtib edilir, hər il əsas göstəriciləri dəqiqləşdirilməklə, 5 il müddətinə qüvvədə qalır.

5. Bundan əlavə, ölkənin mülki müdafiə üzrə tam hazırlığını təmin etmək məqsədilə Azərbaycan Respublikasının illik mülki müdafiə tədbirləri planı tərtib olunur və Azərbaycan Respublikasının *Fövqəladə Hallar Nazirliyi* tərəfindən təsdiq edilir.

6. Planda cari ildə müvafiq icra hakimiyyəti orqanları, təsərrüfat obyektləri və *təhsil müəssisələri* rəhbərləri tərəfindən keçiriləcək mülki müdafiə təlimləri, məşqlər, yoxlamalar və digər tədbirlər, onların keçirilmə tarixləri müəyyən edilir.

7. Təsdiq olunmuş plan əsasında bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də hüquqi şəxslər tərəfindən ilkin mülki müdafiə üzrə planlar tərtib edilib Azərbaycan Respublikasının *Fövqəladə Hallar Nazirliyi* və yaxud onun yerli təşkilatları ilə razılaşdırılır və həyata keçirilir.

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir.***

# Mülki müdafiə üzrə Azərbaycan Respublikası ərazisinin zonalara, şəhərlərinin qruplara və təsərrüfat obyektlərinin dərəcələrə bölünməsi Qaydaları

1. Bu Qaydalar mülki müdafiə üzrə Azərbaycan Respublikası ərazisinin zonalara, şəhərlərinin qruplara, təsərrüfat obyektlərinin isə dərəcələrə bölünməsinə dair əsas qaydaları və şərtləri müəyyən edir.

2. «Mülki müdafiə haqqında» Azərbaycan Respublikasının Qanununa, «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 aprel tarixli 700 nömrəli Fərmanına müvafiq olaraq mülki müdafiə tədbirlərinin planlaşdırılmasının siyasi, iqtisadi, müdafiə əhəmiyyətini və digər amilləri nəzərə alaraq respublikanın ərazisi zonalara, şəhərləri mülki müdafiə üzrə qruplara aid edilir, təsərrüfat obyektləri isə mülki müdafiə üzrə dərəcələrə bölünür.

3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və *Fövqəladə Hallar Nazirliyinin* təqdimatı əsasında zonalar, şəhərlərin qrupları və obyektlərin dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

4. Mülki müdafiə üzrə zonalar bu Qaydalara 1 nömrəli əlavəyə uyğun olaraq müəyyən edilir.

5. Mülki müdafiə üzrə şəhərlərin üç qrupu: birinci qrup (I qrup), ikinci qrup (II qrup), üçüncü qrup (III qrup) şəhərlər bu Qaydalara 2 və 3 nömrəli əlavələrə uyğun olaraq müəyyən edilir.

6. Ən mühüm təsərrüfat obyektlərinə mülki müdafiə üzrə belə dərəcələr verilir: xüsusi əhəmiyyətli (XƏ), birinci dərəcəli (I dərəcəli) və ikinci dərəcəli (II dərəcəli) obyektlər. Təsərrüfat obyektlərinə mülki müdafiə üzrə dərəcələrin verilməsi bu Qaydalara 4 nömrəli əlavəyə uyğun olaraq müəyyən edilir.

Mülki müdafiə üzrə dərəcələr belə obyektlərə verilə bilər: fəaliyyətdə olan, inşa edilən, yenidən quraşdırılan və layihələşdirilən vacib, sənaye, nəqliyyat, energetika və rabitə müəssisəsinə; xüsusi konstruktor bürolarına; neft-qaz mədənləri idarələrinə; dövlət əhəmiyyətli nadir mədəni sərvətlərə malik olan obyektlərə (arxiv, muzey, kitabxana, şəkil qalereyası); material və ərzaq bazalarına; su kəməri təsərrüfatlarına və digər dövlət əhəmiyyətli obyektlərə.

7. Mülkiyyət formasından asılı olmayaraq sənaye birliklərinə, şirkətlərə, kombinatlara və digər təsərrüfat obyektlərinə mülki müdafiə üzrə dərəcələr elə hallarda verilə bilər ki, onların müəssisələri, sexləri və idarəetmə orqanları vahid bir istehsalat sahəsində yerləşmiş olsun.

8. Özlərinin iqtisadi və digər göstəricilərinə görə mülki müdafiə üzrə dərəcələrə aid edilməsi — mümün olmayan bütün digər müəssisələr və idarələr dərəcəsiz obyektlər adlanır.

9. Tikinti təşkilatlarına, yeraltı mədən tikintilərinə, inzibati idarələrə, ictimai təşkilatlara, sanatoriyalara və istirahət evlərinə, teatr, kinoteatr, sirk, kommunal-məişət xidməti idarələrinə, kənd təsərrüfatı obyektlərinə, qoruqlara və fəlakətli daşqın zonasında yerləşən bütün obyektlərə mülki müdafiə üzrə dərəcələr verilmir.

10. Nazirliklərin, komitələrin, baş idarələrin rəhbərləri mülki müdafiə üzrə dərəcələrə aid ediləcək təsərrüfat obyektlərinin siyahısını razılaşdırmaq üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edirlər.

11. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi təsərrüfat obyektlərinin razılaşdırılmış ümumi siyahısını təsdiq edilmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərir.

12. Layihələşdirilən obyektlərə mülki müdafiə üzrə dərəcə layihələşdirmə mərhələsində verilir.

13. Şəhərlərin mülki müdafiə üzrə qruplara aid edilməsi və təsərrüfat obyektlərinə dərəcələr verilməsi, yaxud əvvəllər verilmiş dərəcənin yüksəldilməsi üçün sənədlər təqdim edilərkən bu Qaydalar rəhbər tutulmalıdır.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara* ***1 nömrəli əlavə***

# Zonalar

| | |
|---|---|
| Bakı zonası | Bakı şəhərinin 11 rayonu və Abşeron rayonu |
| Gəncə zonası | Gəncə və Naftalan şəhərləri, Ağstafa, Qazax, Tovuz, Daşkəsən, Gədəbəy, Kəlbəcər, Şəmkir, *Göygöl*, Goranboy, Samux rayonları |
| Sumqayıt zonası | Sumqayıt şəhəri, *Şabran*, Quba, Qusar, Xaçmaz, Siyəzən, Xızı rayonları |
| Mingəçevir zonası | Mingəçevir şəhəri, Ağdaş, Yevlax, Qax, Ucar, Balakən, Zaqatala, Oğuz, Şəki rayonları |
| *Şirvan* zonası | *Şirvan* şəhəri, Hacıqabul, Beyləqan, İmişli, Saatlı, Sabirabad, Salyan, Neftçala rayonları |
| Naxçıvan zonası | Naxçıvan Muxtar Respublikasının bütün rayonları |
| Ağdam zonası | Xənkəndi şəhəri, Ağdam, Ağcabədi, Bərdə, Zərdab, Tərtər, Xocavənd, Xocalı, Şuşa rayonları |
| Cəbrayıl zonası | Cəbrayil, Zəngilən, Qubadlı, Laçın, Füzuli rayonları |
| Şamaxı zonası | Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Göyçay, Kürdəmir, Qobustan rayonları |

| | |
|---|---|
| Lənkəran zonası | Lənkəran, Astara, Lerik, Yardımlı, Biləsuvar, Cəlilabad, Masallı rayonları |

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara* ***2 nömrəli əlavə***

# Şəhərlərin qrupları

| | |
|---|---|
| 1 qrup | Bakı şəhəri |
| 2 qrup | Sumqayıt şəhəri |
| 3 qrup | Gəncə şəhəri |
| | Mingəçevir şəhəri |
| | *Şirvan* şəhəri |
| | Naxçıvan şəhəri |

---

*Azərbaycan Respublikası Nazirlər Kabine*

*tinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara 3* ***nömrəli əlavə***

# Mülki müdafiə üzrə qruplara aid edilmiş şəhərlərin Siyahısı

| Sıra №-si | Respublika tabeli şəhərlər | Sahəsi (min kv. km) | Əhalinin sayı (min nəfər) | Şəhərlərin qısa xarakteristikası (əsas göstəricilər üzrə) | MM üzrə mövcud qrupu | MM üzrə qrupa aid edilir |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarı ilə*

*təsdiq edilmiş Qaydalara 4* ***nömrəli əlavə***

# Mülki müdafiə üzrə dərəcələr verilən təsərrüfat obyektlərinin Siyahısı

| Obyektin mənsubiyyəti (hansı nazirliyə, baş idarəyə mənsubdur | Obyektin mövcud iqtisadi göstəriciləri | | Obyektlərin qısa xarakteristikası (əsas göstəricilər üzrə) | Obyektin mülki müdafiə üzrə mövcud olan dərəcəsi | Obyektə m müdafiə yenidən ve dərəcə |
|---|---|---|---|---|---|
| | işçilə-rin sayı (ümumi və ən böyük iş növbəsində) | buraxıldığı məhsulun həcmi, yaxud obyektin gücü (ildə mln man., min ton və s.) | | | |
| 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | |
| | | | | | |
| | | | | | |

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir.***

# Azərbaycan Respublikasında fövqəladə hadisələrdən müdafiə sahəsində əhalinin hazırlanması Qaydaları

## *1. Ümumi müddəalar*

1.1. Fövqəladə hadisələrdən müdafiə sahəsində əhalinin hazırlanması mülki müdafiənin əsas vəzifələrindən biridir.

1.2. Fövqəladə hadisələrdən müdafiəyə respublikanın bütün əhalisi hazırlanır.

Bu zaman 6 — 17 yaşlı şəxslərə — sülh və müharibə dövrlərindəki fövqəladə hadisələrdən mühafizə üsulları, 17 yaşından yuxarı şəxslərə isə, bundan əlavə belə hadisələrin nəticələrini aradan qaldırmaq üzrə fəaliyyət qaydaları da öyrədilir.

1.3. Fövqəladə hadisələrdən müdafiə qaydalarının və mülki müdafiənin əhaliyə öyrədilməsi respublikanın bütün ərazisindəki nazirlik, komitə, idarə, müəssisələrin, təşkilatların rəhbərləri tərəfindən təşkil edilir, kadrların hazırlanması sistemində işçilərin əsas vəzifələri ilə yanaşı mülki müdafiə üzrə vəzifələr də nəzərə alınmaqla, fərdi və fasiləsiz yerinə yetirilir.

1.4. Obyektlərdə mülki müdafiənin öyrədilməsi işləri tədris qruplarında məşğələ aparmaq, mühafizə məsələlərini müstəqil surətdə öyrənmək üsulları ilə, məşq və təlimlər vasitəsilə həyata keçirilir.

1.5. Məşğələlərin mövzuları, keçirilməsi qaydası və vaxtı (iş vaxtı və ya işdən sonra) yerli şərait, istehsalın xüsusiyyətlərini və öyrədilən şəxslərin hazırlıq dərəcəsini nəzərə almaqla müəyyən edilir.

1.6. İşçilər fəaliyyətə hazırlanarkən onlara «Mülki müdafiə» mövzullarının öyrədilməsi nəzərdə tutulur, həmçinin təhlükəsizlik texnikası üzrə ilkin təlimat proqramlarına, müəssisədə işin xüsusiyyətləri nəzərə alınmaqla mülki müdafiə məsələləri də daxil edilir.

1.7. Kollektiv və fərdi əmək müqaviləsi, digər müqavilələr bağlanarkən bunlarda mülki müdafiəyə hazırlığın təşkili üzrə işəgötürənin və əmək kollektivinin vəzifələri müəyyən olunur.

1.8. Dövlət və qeyri-dövlət təhsil müəssisələrində şagirdlərin, tələbələrin və dinləyicilərin mülki müdafiə hazırlığı proqramları, mövzuları və tədris saatlarının miqdarı müvafiq nazirlik, dövlət komitələri, baş idarələr, təhsil müəssisələri tərəfindən yerli xüsusiyyətlər nəzərə alınmaqla işlənib hazırlanır və Azərbaycan Respublikasının *Fövqəladə Hallar Nazirliyi* ilə razılaşdırılır.

1.9. Əməli məşğələlər, mülki müdafiə təlimləri və məşqləri — sülh və müharibə dövrlərindəki fövqəladə hallarda mülki müdafiə tədbirlərinin yerinə yetirilməsinə bütün əhali qruplarını hazırlamağın əsas forması hesab edilir.

Respublikanın əhalisinə mühafizə bitkilərinin öyrədilməsində mülki müdafiə təbliğatına geniş yer verilir.

Mülki müdafiə təbliğatı sülh və müharibə dövrlərindəki fövqəladə hallarda mühafizəsinin üsul və qaydalarını bütün əhaliyə öyrətməyin formalarından biridir.

Mülki müdafiə təbliğatında kütləvi informasiya vasitələrinin, gönüllü hərbi-vətənpərvərlik texniki-idman cəmiyyətlərinin, digər dövlət və ictimai təşkilatların

imkanlarından səmərəli istifadə olunmalıdır. Bu sahədə *Fövqəladə Hallar Nazirliyi* nəzdində yaradılan mətbuat və informasiya qurumu xüsusi rol oynamalıdır.

## *II. Mülki müdafiənin əməli məşğələləri, təlimləri və məşqləri*

2. Obyektlərdə keçirilən əməli məşğələlərin, mülki müdafiə təlimləri və məşqlərinin əsas növləri bunlardır:

2.1. mülki müdafiə normativlərinin yerinə yetirilməsi — normativlər adətən ayda bir dəfə mülki müdafiə məşğələsi zamanı öyrədilir;

2.2. rəhbər heyətin mülki müdafiə məşqləri — ildə bir dəfə keçirilir və belə məşqlər zamanı rəhbər heyət obyektin mülki müdafiə planına əsasən özünün xidməti vəzifələrini dəqiq öyrənir; məşqə obyektin MM qərargahı, MM xidmətlərinin rəhbər heyətləri və hərbiləşdirilməmiş dəstələrin komandir-rəis heyəti cəlb edilir;

2.3. kompleks mülki müdafiə təlimləri hər üç ildən bir, 2— 3 gün ərzində aşağıdakı obyektlərdə keçirilir: işçilərinin sayından asılı olmayaraq, mülki müdafiə üzrə dərəcəli obyektlərdə və kimyəvi, partlayış-yanğın təhlükəli digər obyektlərdə; işçilərinin sayı 300 nəfərdən artıq olan dərəcəsiz obyektlərdə; çarpayılarının sayı 200-dən artıq olan müalicə-profilaktika müəssisələrində. Təlimə obyektin rəhbər, komandir-rəis heyətləri, hərbiləşdirilməmiş MM dəstələrinin şəxsi heyati, dəstələrə cəlb olunmayan işçilər cəlb edilir, habelə obyektin ətrafında yaşayan əhali də təlimlərə cəlb edilə bilər;

2.4. qalan obyektlərdə, o cümlədən təhsil müəssisələrində *(ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili və digər təhsil müəssisələrindən başqa)* üç ildən bir 8 — 10 saat davam edən obyekt mülki müdafiə məşqləri keçirilir. Məşqlərə obyektin rəhbər, komandir-rəis heyətləri, hərbiləşdirilməmiş MM dəstələrinin şəxsi heyəti, dəstələrə cəlb olunmayan işçilər və təhsil alan gənclər cəlb edilir;

2.5. hərbiləşdirilməmiş mülki müdafiə dəstələri ilə əməli məşğələlər — yüksək hazırlıqlı dəstələrlə ildə bir dəfə, qalan dəstələrlə üç ildən bir — kompleks təlim və ya obyekt məşqi 8 saat həcmində keçirilir;

2.6. *ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili və digər təhsil müəssisələrində isə hər il «Mülki müdafiə» günü keçirilir və bu tədbir həmin təhsil müəssisələrinin illik tədris planlarında da nəzərdə tutulur;*

2.7. hər bir hərbiləşdirilməmiş mülki müdafiə dəstəsi ilə xəbərdarlıq toplanış üzrə məşq ildə iki dəfə keçirilir.

## *III. Obyektlərin rəhbər, komandir-rəis heyətlərinin, mülki müdafiə qüvvələrinin və mülki müdafiə mütəxəssislərinin hazırlanması*

3.1. Rəhbər heyətin hazırlığı bilavasitə təsərrüfat obyektlərində, ərazi və sahə mülki müdafiə orqanları tərəfindən keçirilən tədris-metodiki toplanışlarda, *əlavə təhsil müəssisələrində (universitetlər, institutlar, mərkəzlər və s.)* və mülki müdafiə kurslarında yerinə yetirilir.

3.2. Obyektlərdə rəhbər, komandir-rəis heyətləri və işçilərdən, habelə tələbələrdən ibarət hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin şəxsi-heyətinin hazırlığı qüvvədə olan proqramlara müvafiq həyata keçirilir. Rəhbər, komandir-rəis heyətlərinin ixtisasartırma institutlarında və mülki müdafiə kurslarında hazırlanmasına isə müvafiq proqramlar həcmində vaxt ayrılır.

3.3. Onlar həmçinin tədris ili ərzində ən çoxu 5 — 7 gün istehsalatdan ayrılmaqla keçirilən məşğələlərdə, məşqlərdə, toplanışlarda hazırlanır, yeni vəzifəyə təyin olunandan sonra isə hər 5 ildən bir mülki müdafiə kurslarında hazırlıq keçirlər.

3.4. Mülki müdafiənin rəhbər heyəti və mütəxəssisləri mərkəzi mülki müdafiə və Naxçıvan Muxtar Respublikasının mülki müdafiə kurslarında, *ali təhsil müəssisələrinin* mülki müdafiə müəllimləri pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması institutunda ixtisasartırma kursunda keçirlər, hərbi mülki müdafiə mütəxəssisləri isə Azərbaycan Respublikası mərkəzi mülki müdafiə kursunda, *hərbi təhsil müəssisələrində,* habelə müvafiq sazişlərə əsasən xarici ölkələrin ixtisaslaşdırılmış müəssisələrində hazırlanırlar.

3.5. Mülki müdafiə mütəxssisləri və müəllimləri *ali təhsil müəssisələrində* yaradılmış müvafiq fakültələrdə də (kafedralarda) xüsusi proqram üzrə hazırlana bilər.

3.6. Rəhbər heyət kadrları *əlavə təhsil müəssisələrində* təhsil alan ili mülki müdafiə kurslarında hazırlığa cəlb edilmir.

3.7. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələri komandir-rəis heyətinin və mülki müdafiə xidmətləri mütəxəssislərinin hazırlığı istehsalatdan ayrılmaqla hər üç ildən bir MM kurslarında, habelə tədris-metodiki toplanışlarda, ixtisasartırma kurslarında, xalq təsərrüfatı obyektlərində isə MM dəstələrinin şəxsi heyəti ilə birlikdə aparılır.

Onların əsas hazırlıq üsulu əməli məşğələ və məşqlərdir ki, burada lazımi ixtisas vərdişləri yaradılır və təkmilləşdirilir.

3.8. Mülki müdafiə dəstələri və xidmətlərinin ayrı-ayrı mütəxəssisləri hər il 2 — 3 gün istehsalatdan ayrılmaqla məşğələlərdə, toplanışlarda da hazırlana bilər.

## IV. İşçilərə və işləməyən əhaliyə mülki müdafiə biliklərinin öyrədilməsi

4.1. İdarə, müəssisə, təşkilat və digər obyektlərdə işləyən, lakin mülki müdafiə dəstələrinin, xidmətlərinin heyətinə cəlb olunmayan əhaliyə mülki müdafiə bilikləri hər il iş yerində, istehsalatdan ayrılmadan öyrədilir. Bu əhali qrupu üçün hazırlığın aşağıdakı növləri müəyyən edilir:

4.1.1. mülki müdafiə məsələlərini müstəqil surətdə öyrənmək və hər ay sex, sahə, şöbə və digər bölmə rəhbərlərinin keçirdiyi MM məşqlərində iştirak etmək;

4.1.2. tədris qrupunun tərkibində, xüsusi hazırlanmış qrup rəhbərlərinin, yaxud bilavasitə öz rəhbərinin başçılığı ilə müntəzəm məşğələ keçmək.

4.2. Obyektin ştatlı mülki müdafiə işçiləri belə məşğələ rəhbərləri ilə və ya təlimatçılarla tədris ilinin əvvəlində bir iş günlük metodik toplanış keçirirlər. Ştatlı mülki müdafiə işçiləri olmayan obyektlərdə belə toplanışlar zona, şəhər, rayon mülki müdafiə icra orqanlarında və kurslarında təşkil edilir.

4.3. İstehsalat və xidmət sahələrində işləməyən əhaliyə mülki müdafiə bilikləri yaşayış yerlərində, kütləvi informasiya vasitələrinin, mənzil idarələrində yerli icra hakimiyyəti orqanlarının yaratdığı məsləhət məntəqələrinin yardımı ilə müstəqil surətdə və təsərrüfat müəssisələrində, mənzil istismarı orqanlarında keçirilən əməli məşğələlərə, MM məşqlərinə cəlb edilməklə öyrədilir.

## *V. Dövlət və qeyri-dövlət ali təhsil, orta ixtisas təhsili, ilk peşə-ixtisas təhsili və ümumi təhsil müəssisələrində təhsilalanlara mülki müdafiənin öyrədilməsi*

5.1. Mülki müdafiə, Mülki müdafiə və tibbi biliklərin əsasları — *ali təhsil müəssisələrində əyani və qiyabi təhsilalma formalarında bütün təhsilalanlara* öyrədilməsi məcburi olan fənnlər sayılır və tədris planlarına xüsusi fənnlər kimi daxil edilir.

5.2. *Ali təhsil müəssisələrinin* tələbələrinə Mülki müdafiə, Mülki müdafiə və tibbi biliklərin əsasları fənnləri qüvvədə olan proqramlara müvafiq tədris edilir.

5.3. Tələbələrə MM öyrədilməsi üzrə əsas vəzifələr aşağıdakılardır:

5.3.1. sülh və müharibə dövrlərindəki fövqəladə hallarda fəaliyyət göstərmək və *ali təhsil müəssisələrində* aldıqları ixtisasa müvafiq olaraq, obyektlərin sabit işinin təmin edilməsi üsullarını öyrənmək;

5.3.2. tibbi biliklərin əsaslarına yiyələnmək və fövqəladə hallarda əməli olaraq tibbi yardım göstərməyi bacarmaq;

5.3.3. *ümumi təhsil müəssisələrinin* 2, 5, 6-cı siniflərində mülki müdafiə və tibbi-sanitariya hazırlığı fənnləri üzrə məşğələlər aparmağı bacarmaq.

5.4. Xüsusi fənn olmaqla mülki müdafiə üzrə məşğələlər bütün *ali təhsil müəssisələrinin* yuxarı kurslarında iki semestr, tibbi biliklərin əsasları isə dörd semestr ərzində keçirilir.

5.5. Ali pedaqoji məktəb tələbələrinə təcrübə keçən dövrdə onlarla mülki müdafiə və tibb hazırlığı fənni üzrə məşğələlər aparılması da planlaşdırılır.

5.6. Mülki müdafiə fənni imtahan verməklə qurtarır. Pedaqoji institutlar və universitetlərdə tibbi biliklərin əsasları fənnindən birinci tədris ili tələbələr imtahan, ikinci tədris ili isə məğbul verirlər. Kurs buraxılış imtahanları ilə qurtarır.

5.7. *Ali təhsil müəssisələrində* mülki müdafiə kafedraları (kursları) müvafiq məktəbin, nazirliyin rəhbərlərinin əmri ilə yaradılır. Onlar ümumi qaydalara müvafiq komplektləşdirilir. Hərbi kafedrası olan təhsil müəssisələrində isə mülki müdafiə proqramı üzrə dərslərin tədrisi hərbi kafedra müəllimləri tərəfindən aparılır.

5.8. Mülki müdafiə kafedraları (kursları) müəllimlərinin bilikləri sahə təkmilləşdirmə *təhsil müəssisələrində*, respublikanın mərkəzi mülki müdafiə kursunda və müvafiq sazişlərə əsasən digər ölkələrin ixtisaslaşdırılmış *təhsil müəssisələrində* təkmilləşdirilir.

5.9. *Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili və digər təhsil müəssisələrinin* 10 — 11 sinif şagirdlərinə, tələbələrinə mülki müdafiə «Gənclərin ibtidai

hərbi hazırlıq proqramı»na bölmə kimi daxil edilir və proqramda nəzərdə tutulan miqdarda hərbi rəhbər tərəfindən tədris olunur.

Mülki müdafiə fənni 2-ci sinifdə 6 saat, 5-ci sinifdə 8 saat və 6-cı sinifdə 8 saat tədris olunur. Saatlar bədən tərbiyəsi fənninin tədris saatlarına daxil edilir və sinif rəhbərləri tərəfindən tədris olunur.

Mülki müdafiəni tədris edən sinif rəhbərləri tədris ilinin əvvəlində yerli mülki müdafiə qərargahlarının nəzdində 3 günlük kurs keçirlər.

## *VI. Rəhbər, komandir-rəis heyətlərinin və mütəxəssislərinin mülki müdafiə kurslarında hazırlanması*

6.1. Azərbaycan Respublikasının, Naxçıvan MR-nin, rayon (şəhər), kənd və qəsəbələrin, eləcə də nazirliklərin, dövlət komitələri, baş idarələr, istehsalat birlikləri, şirkətlər, assosiasiyalar, *elmi təşkilatlar və təhsil müəssisələri* və mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat obyektləri rəhbərlərinə, mütəxəssislərinə mülki müdafiə sahəsində qarşıda duran vəzifələri yerinə yetirmək qaydalarını öyrətməyin əsas forması — onları mülki müdafiə kurslarında hökmən hazırlanmasını təşkil etməkdir.

6.2. Mülki müdafiə kurslarının fəaliyyəti xüsusi əsasnamə ilə müəyyən edilir.

6.3. Əhalinin mühafizəyə hazırlanmasında beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi məqsədilə Mərkəzi mülki müdafiə kursu Avropa Şurasının İri Miqyaslı Qəzalar üzrə Qismən Açıq Sazişinin (AŞ QAS) Bakıda sınaqdan keçirilən Tədris-İnformasiya Mərkəzi ilə birgə fəaliyyət göstərir.

## *VII. Əlavə təhsil müəssisələrində təhsilalanlara mülki müdafiənin öyrədilməsi*

7.1. *Əlavə təhsil müəssisələrində təhsilalanlara* mülki müdafiənin öyrədilməsinin əsaslarını sülh və müharibə dövrlərindəki fövqəladə hallarda onların öz əsas işinə və mülki müdafiə üzrə vəzifələrinə müvafiq olaraq mühafizə tədbirlərini həyata keçirmək vərdişlərinin qazanması məqsədilə aparılan əməli məşğələlər təşkil edir.

7.2. Obyektlərin rəhbər heyəti və mütəxəssisləri yenidən hazırlanarkən tədris prosesinə «Fövqəladə hallarda obyektin idarə olunması və onun sabit işinin təmin edilməsi» kursu, ictimai və humanitar *təmayüllü təhsil müəssisələrində* isə «Mülki müdafiə» kursu daxil edilir.

Məşğələlər həm bu kursun öyrədilməsi üçün planlaşdırılmış saatlarda, həm digər fənnlər ilə kompleks halında, həm də kafedraların tapşırıqlarına əsasən, müstəqil hazırlıq saatlarında keçirilir. Məşğələlər fəal tədris metodları və hesablayıcı texnikanın geniş tətbiqi ilə aparılır.

7.3. Mülki müdafiə kursunun öyrədilməsi proqram həcmində yoxlama ilə, yaxud yoxlama işi (referat) yazmaqla başa çatdırılır. Fövqəladə hallarda müəssisənin (sahənin) idarə edilməsi və onun sabit işinin təmin olunması məsələləri dinləyicilərin buraxılış işlərinə ayrıca bölmə kimi daxil edilir.